# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 40 (1168) 27 fevral - 29 fevral 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# ŞABRAN - İNKİŞAF VƏ TƏRƏQQİ YOLUNDA




**Şabranın ən iri, özəl istehsalat müəssisələri olan, xeyli sayda mindən çox əhalini daimi işlə təmin edən "Dəvəçi" Dəyirman və "Səba" Səhmdar Cəmiyyətləri ili uğurlu nəticələrlə yekunlaşdırıb, rayonun iqtisadi göstəricilərinə müsbət töhfələr verib. Bu müəssisələrdə ötən il 32,4 min ton un və kəpək, 20,9 min ton quş əti istehsal olunub. Onu da qeyd edək ki, rayonda sahibkarlıq subyektlərinin inkişafına əlverişli şərait yaradılıb. Belə ki, 2015-ci ildə sahibkarlıq subyektlərinin sayı 3548-ə, özəl müəssisələrin sayı səkkiz subyekt artaraq 265-ə, iri müəssisələrin sayı 35-ə çatıb. Dəvəçi kəndi ərazisində quş əti istehsal edən və 8 hektarlıq istixanada tərəvəz yetişdirən "Şabranaqro" MMC də fəaliyyətini daha da genişləndirib. Belə ki, bu müəssisədə il ərzində 302 ton tərəvəz, 296 ton quş əti istehsal olunub. Uzunboyaddakı "Meri-Brand" şirə-şərab zavodu istehsalını təkmilləşdirib. Orada istehsalın həcmi on dəfədən çox artaraq 168 min dekalitrə çatdırılıb. Müəssisədə çalışanların sayı və əmək haqqı müvafiq surətdə artıb.**



Ötən ilin ən əlamətdar hadisəsi ölkə prezidenti cənab İlham Əliyevin "Qalaaltı" müalicə istirahət kompleksinin açılışında iştirak etməsi olub. 180 nəfər işçi qüvvəsinin çalışdığı 354 yerlik "Qalaaltı" müalicə istirahət turizm mərkəzi rayonda turizmin inkişafı potensialını üzə çıxarıb. İndi "Qalaaltı" da daxil olmaqla 6 ünvanda 600 yerlik otel istirahət məntəqələri vardır. İlk dəfə olaraq 2015-ci ildə rayona 13.224 turist gəlib. Bununla yanaşı, hazırda Şabranda yeni turizm mərkəzlərinin tikintisinə böyük diqqət yetirilir. Belə ki, yüzdən çox rayon sakininin çalışdığı Bakı-Rusiya magistral yolunun Rəhimli kəndi ərazisindən keçən hissəsində "Əlincə" idman klubu üçün təlim-məşq düşərgəsi və 50 yerlik hotel kompleksinin tikintisi başa çatıb. Şabran şəhərində 33 yerlik mehmanxana və istirahət mərkəzi tikilib istifadəyə verilib.

26 min nəfər əhalinin yaşadığı Şabran şəhərinin qazlaşdırılması yenidən qurulub. Rayonun daha 9 kəndinə mavi yanacaq verilib. İndi rayon əhalisinin 46 min nəfəri və ya 80 faizi mavi yanacaqla təmin edilir. 2015-ci ildə Pirəbədil, Sumaqova, Xəlilli, Dağbilici, Zöhramı, Pirəmsən kəndlərinə təbii qaz verilib. Günəşli və Mumlu kəndlərindəki kənddaxili qaz xətlərinin çəkilişi başa çatıb. Ağalıq, Gəndob, Uzunboyad, Məliklər. Söhbətli, Padar kəndlərini əhatə edən 1920 metr d-57mm-lik köhnə qaz xətləri yenisi ilə əvəzlənib. Hazırda rayonda təbii qaz istehlakçılarının sayı 9676-dır. "Azəriqaz" İstehsalat Birliyi tərəfindən 2016-cı ildə Günəşli, Mumlu kəndlərinə qazın verilməsi, digər kəndlərin qazlaşdırılması üçün tədbirlər görülür.

2011-ci ildə inşasına başlanmış Şabran şəhərinin içməli su və kanalizasiya şəbəkələrinin tikintisi demək olar ki, başa çatıb. Hazırda 4200 nəfərdən çox abonent yeni su kanalizasiya şəbəkəsinə qoşulub. Gün ərzində içməli suyun verilməsi 10-15 saat müddəti ilə təmin olunur. Həmin layihə çərçivəsində şəhərin ucqar ərazisində olan Surra yaşayış sahəsinə içməli su çəkilişi layihəsi tərtib olunub, şəhərə yaxın Sincanboyad kəndinə isə içməli su və kanalizasiya şəbəkəsinin tikintisi üçün layihə-smeta sənədləri hazırlanıb.

"Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyi və bələdiyyələrin köməyi ilə Ağalıq və Günəşli kəndlərinin su təchizatı yaxşılaşdırılıb. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Pirəbədil, Zöhramı, Sumaqova, Dağbilici, Sumaqova-Qazma kəndlərinin içməli su təchizatı şəbəkəsinin layihə-smeta sənədləri hazırlanıb. Və layihənin icrası üçün müvafiq tədbirlər görülür.

Bununla yanaşı, Taxtalar, Leyti, Ağalıq, Çölquşçu, Xəlilli, Çayqaraqaşlı, Hacıqaraqaşlı kəndlərinin su təchizatını yaxşılaşdırmaq üçün tədbirlər görüləcək. Uzunboyad, Gəndov, Aygünlü , Şahnəzərli, Dəvəçi və Ağbaş kəndləri içməli su ilə 40-50 il bundan əvvəl Bakı su kəmərinə qoşulmuş köhnəlmiş xətlərlə təmin olunur. Hazırda həmin kəndlərdə əhalinin sayı iki dəfədən çox artdığından və metal borular köhnəldiyinə görə bu kəndlərdə su təchizatı şəbəkəsinin yenidən qurulması vacib sayılır. "Azərsu" Səhmdar Cəmiyyəti tərəfindən şübhəsiz ki, həmin məsələlər nəzərə alınacaq və problem tezliklə öz həllini tapacaqdır. 2015-ci ildə içməli suyun dəyəri ümumi istehlakçılar tərəfindən 84.7 faiz, əhali abonentləri tərəfindən 75,2 faiz ödənilib. Şabran şəhərinin su və kanalizasiya şəbəkəsinin tikintisinin başa çatdırılması, görülən işin keyfiyyətlə icrası layihənin son mərhələsi olan təmizləyici qurğunun tezliklə istifadəyə verilməsi üçün ciddi addımlar atılmalıdır. Təbii ki, problemlərin həlli əhalinin içməli su sarıdan mövcud çətinliyi aradan qaldıracaqdır.

**"... Bu gün Azərbaycan təkcə neft ölkəsi deyil, bü gün Azərbaycan həm də kənd təsərrüfatı, sənaye ölkəsidi. Bizim kifayət qədər təbii, iqtisadi sərvətlərimiz, gücümüz, imkanlarımız var. Çalışmalıyıq ki, bundan sonra da qeyri-neft sektorunu daha da geniş əhatədə, daha böyük sürətlə inkişaf etdirib Azərbaycanın nemətlərini təkcə özümüzün, ölkəmizin bazarlarında deyil, həm də dünya bazarlarına çıxaraq".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Dövlət investisiyası vəsaiti hesabına rayon icra hakimiyyətinin sifarişi ilə 80 şagird yerlik Taxtalar ümumi orta məktəbin tikintisi başa çatmaq ərəfəsindədir. Dövlət büdcəsinin yerli xərcləri hesabına şəhərin 5 nömrəli tam orta, Padar kənd tam orta, Pirəmsə kənd tam orta məktəbləri və şahmat məktəbi təmir olunub. Son on iki ildə dövlət investisiyası vəsaiti hesabına 2760 şagird yerlik 19, o cümlədən Heydər Əliyev Fondu hesabına 560 şagird yerlik 5 məktəb binası tikilib istifadəyə verilib. 2840 şagird yerlik 40 məktəb binası əsaslı təmir olunub.

Ötən il şabranlı məzunlar da böyük uğurlar əldə ediblər. Belə ki, imtahanların nəticələrinə görə rayonun 122 məzunu tələbə adını qazanıb. Bu da əvvəlki illərlə müqayisədə 18 nəfər çoxdur. Rayon məktəblərinin 11 nəfər məzunu 500-dən yuxarı, o cümlədən 1 nəfər məzun - şəhər 1 nömrəli tam orta məktəbinin məzunu Nəzrin Mənsur qızı Cəbrayılova 675 bal toplayıb. Şəhərin 1 və 2 nömrəli Zeyvə, Pirəmsən, Şahnəzərli və Ağalıq kənd tam orta məktəbləri tələbə qəbulunda fərqləniblər. Rayon üzrə orta ixtisas məktəblərinə 28 nəfər, ali xüsusi təyinatlı təhsil müəssisələrinə 6 nəfər məzun qəbul olunub.

**Bütün bu faktlar göstərir ki, Şabranda yazımızın əvvəlində qeyd etdiyimiz kimi, bütün sahələrin inkişafına böyük dövlət qayğısı vardır. Eyni zamanda rayon icra hakimiyyəti ölkə prezidenti tərəfindən qarşıya qoyulmuş vəzifələrin icrasına məsuliyyətlə yanaşır, Şabranın inkişafı üçün var qüvvəsini və bacarığını əsirgəmir. Təbii ki, əziyyət çəkilən yerdə yüksəlişin və tərəqqinin inkişafı qaçılmazdır.**

**FAİQ QİSMƏTOĞLU**